

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 221 (23.633)

*18 dekabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Amanullah Ceyhunun etimadnaməsini qəbul edib.

Prezident İlham Əliyev səfirlə söhbət zamanı deyib ki, ölkələrimiz arasında siyasi əlaqələrimiz heç vaxt olmadığı qədər güclüdür. İqtisadi əməkdaşlıq və sərmayə layihələrinə dair çoxsaylı məsələlər müzakirə edilir.

Dövlətimizin başçısı vurğulayıb ki, əməkdaşlığın daha bir vacib elementi təhlükəsizlik məsələləridir. Azərbaycan artıq 20 ilə yaxındır ki, Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edir. Azərbaycan bütün bu illər ərzində Əfqanıstanda təhlükəsizliyin qorunmasına sadiqlik nümayiş etdirib. Müəyyən müddət əvvəl Azərbaycan hərbçilərinin sayını artırmaqla Əfqanıstanda təhlükəsizlik məsələsinə olan münasibətimizi, bununla bağlı siyasətimizi nümayiş etdirdik.

Prezident İlham Əliyev qardaş əfqan xalqına hər zaman – danışıqlar və işğal dövründə, müharibə zamanı və müharibədən sonra, Qələbəmizi qeyd etdiyimiz vaxtda yanımızda olduğuna, bizi dəstəklədiyinə görə minnətdarlığını ifadə edib.



## Babək şəhərində bazar kompleksi istifadəyə verilib





“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” Babək rayonunda da uğurla icra olunur, kompleks-quruculuq tədbirləri həyata keçirilir. İstifadəyə verilən müasir sosial obyektlər əhaliyə göstərilən xidmətlərin səviyyəsini yüksəltməklə yanaşı, Babək rayonunu da müasir yaşayış məntəqəsinə çevirmiş, məskunlaşma artmış, rayon mərkəzi və kəndlər böyümüşdür. Bu il Babək qəsəbəsinə şəhər, Nehrəm və Cəhri kəndlərinə isə qəsəbə statusu verilmişdir. Rayonda sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının sayının artması istehsal olunan məhsulların satışını da zərurətə çevirmiş, Babək şəhərində müasir bazar kompleksi tikilmişdir.



Dekabrın 17-də Babək şəhərindəki yeni bazar kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov demişdir ki, Babək rayonu son 25 ildə böyük inkişaf yolu keçmiş, yenidən qurulmuşdur. Göstərilən diqqət və qayğı sayəsində rayonda bütün infrastruktur yaradılmışdır. Bu gün isə Babək şəhərində bazar kompleksi tikilib əhalinin istifadəsinə verilir. Rayon sakinləri indiyədək istər istehsal etdikləri məhsulları satmaq, istərsə də lazım olan zəruri məhsulları almaq üçün Naxçıvan şəhərindəki bazarlara üz tuturdular. Yeni bazar kompleksi bu sahədə rayon əhalisinə hərtərəfli xidmət göstərəcəkdir. Rasim Hüseynov yaradılan şəraitə görə rayon sakinləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Babək şəhərində bazar kompleksi istifadəyə verilir. Yeni kompleksdən bütün şəhər sakinləri istifadə edəcəklər. Babək rayonu 1978-ci ildə ulu öndərimizin qərarı ilə yaradılıb. Ötən dövrdə rayon böyük inkişaf yolu keçmiş, 2008-ci ildə 30, 2018-ci ildə 40 illiyi qeyd edilmiş, yubileylərlə bağlı tədbirlər planları hazırlanaraq icra olunmuşdur. Həyata keçirilən tədbirlər və əldə olunan inkişaf Babək qəsəbəsinin şəhərə çevrilməsinə zəmin yaratmışdır. Ona görə də Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Babək qəsəbəsinə şəhər statusu verilmişdir. Bu gün Babək Azərbaycanın müasir şəhərləri sırasına daxil olmuşdur. Bütün bunlar inkişafın göstəricisidir.

“Şəhər o yerdə yaradılır ki, orada inkişaf olsun, yenidənqurma işləri aparılsın və ərazidəki infrastruktur şəhərin tələblərinə cavab versin”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ötən dövrdə görülən işlər Babək qəsəbəsinin şəhər statusu almasına imkan verdi. Babəkə şəhər statusu verilən zaman bazar kompleksinin qurulması da qərarlaşdırıldı və ərazi seçildi. Hazırda Babək rayonunda 5 min 900-ə yaxın sahibkarlıq subyekti fəaliyyət göstərir. Yeni bazar kompleksində sahibkarlıq müəssisələrinin, ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satışı, kənd təsərrüfatı məhsulları yarmarkalarının keçirilməsi üçün hərtərəfli şərait vardır. Artıq sakinlər rayonda istehsal olunan məhsulları Naxçıvan şəhərinin bazarlarından deyil, Babək şəhərində fəaliyyət göstərən bazardan alacaqlar. Kompleksin tikilməsi üçün seçilən ərazi sakinlərin buraya rahat gediş-gəlişinə də təminat verir. Bazar kompleksi uzun illər sakinlərə xidmət edəcəkdir. Onlar burada həm məhsullarını satacaq, həm də gündəlik tələbatlarını ödəyəcəklər. Həmçinin bazar kompleksi yeni iş yerlərinin açılması və əhalinin məşğulluğunun təmin olunmasına da töhfə verəcəkdir.



Ali Məclisin Sədri kompleksin qurulmasında əməyi olanlara təşəkkür etmişdir.

Babək şəhər sakini, ziyalı Ənvər Hüseynov minnətdarlıq edərək demişdir: “Mən burada doğulmuşam. Rayon yaradılandan Babək şəhər statusu alanadək ötən dövr hər an gözlərim

*Ardı 2-ci səhifədə*

önündə canlanır. Vaxtilə burada bir inzibati bina və kiçik məktəb var idi. Göstərilən dövlət qayğısı sayəsində bu gün abad yollarımız, müasir xəstəxana, uşaq bağçası, iki məktəb, musiqi məktəbi, rabitə evi, idarə və təşkilatlar üçün yeni inzibati binalar şəhərimizə xüsusi gözəllik verir. İstifadəyə verilmiş 7, 5 və 2 mərtəbəli yaşayış binaları əhali rifahının, məskunlaşmanın göstəricisidir. Babək artıq aqrar sənaye rayonuna çevrilmişdir. Hazırda burada 62 adda sənaye məhsulu istehsal olunur. Həmin məhsulların yeni bazar kompleksində satışı təşkil olunacaq. Yaradılan şəraitdən səmərəli istifadə edəcək, qurulanları qoruyacağıq”.

Sonra kompleksə baxış olmuşdur. Məlumat verilmişdir ki, 4700 kvadratmetr ərazini əhatə edən bazar binasında ərzaq, geyim, məişət, təsərrüfat malları və mobil telefon mağazaları, yeməkxana, bərbər, foto, əczaxana və baytarlıq əczaxanası yerləşir. Binada istilik və su sistemləri qurulmuşdur. Kompleksdə 36 satış yeri olan yarımqapalı meyvə-tərəvəz satış sahəsi tikilmişdir. Eləcə də burada kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili üçün də şərait vardır. Ərazidə heyvan və ev quşlarının satışı üçün 1250 kvadratmetr çəpərlənmiş sahə ayrılmışdır.

Bazara gedən yola asfalt salınmış, 57 yerlik avtomobil dayanacağı yaradılmışdır.

Satıcılardan Vüqar Süleymanov, Nazilə Zeynalova və Əfsanə İsayeva yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Ali Məclisin Sədri bazarda ailə təsərrüfatı məhsullarının satışına üstünlük verilməsi, əhalinin tələbatının nəzərə alınması, yarmarkaların təşkili və təmizliyə riayət olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Azərbaycan dövlətçiliyinə xidmət nümunəsi



***Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan öz tarixinin çətin günlərini yaşayırdı. İşğalçı ermənilər tərəfindən blokadaya alınmış Naxçıvan daha ağır vəziyyətdə idi. Yollar bağlanmış, əlaqələr kəsilmiş, insanların yaşaması üçün vacib olan zəruri vasitələr problemə çevrilmişdi. Məhz belə bir zamanda dünya şöhrətli siyasətçi, qüdrətli dövlət xadimi Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdı. Azərbaycanın və Naxçıvanın qanunverici orqanlarına deputat seçilən, sonra isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, təhlükəsizliyinin təmin edilməsinə və inkişafına yönəlmişdi. Qarşıya qoyulan bütün məsələlər ulu öndər Heydər Əliyev uzaqgörənliyi, müdrikliyi, cəsarət və qətiyyəti sayəsində həll edildi. Naxçıvan qorundu, onun düşmən əlinə keçməsinə imkan verilmədi.***

Dahi şəxsiyyətin Naxçıvanla bağlı arzuları, quruculuq xəttinin davamı sonrakı dövrlərdə də muxtar respublikanın inkişafını təmin etdi. Həmin illərdə ulu öndər Heydər Əliyevlə birgə işləyən cənab Vasif Talıbov bu dahi insanın zəngin dövlətçilik təcrübəsindən, idarəçilik bacarığından, qətiyyətli mövqeyindən faydalanmış, dövlətçilik dərsi keçmişdir. Elə bunların nəticəsi idi ki, cənab Vasif Talıbov 16 dekabr 1995-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında muxtar dövlətin başçısı seçildi. Ali Məclisin Sədri gələcək fəaliyyət proqramından danışarkən bildirdi: ***“Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm. Bütün qüvvə və bacarığımı Naxçıvanın çiçəklənməsinə sərf edəcəyəm, ordu quruculuğu, təhsil, intellektli və vətənpərvər gəncliyin yetişdirilməsi fəaliyyətimdə üstün istiqamət olacaq”.***

Həmin tarixi hadisədən 25 il keçmişdir. İyirmi beş ildə Naxçıvanda həyati əhəmiyyətli elə işlər görülüb ki, tarixin heç bir mərhələsini bu illərlə müqayisə etmək mümkün deyildir. Əsrin dörddəbirində birərslik uğurlar əldə edilmiş, ölçüyəgəlməz müsbət dəyişikliklər baş vermişdir. Belə ki, cənab Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra qısa müddət ərzində muxtar respublikanın həyatının bütün sahələrində əsl canlanma müşahidə olunmağa başladı. İctimai-siyasi mühit sağlamlaşdırıldı. Quruculuq və abadlıq işləri geniş vüsət aldı. Bütün bunlar Ali Məclis Sədrinin əldə etdiyi təcrübənin və coşqun fəaliyyətinin nəticəsi idi.

Muxtar respublikanın həyatında baş verən dəyişikliklər, sabitləşmə və canlanma, ilk növbədə, ümummilli lider Heydər Əliyevin o zaman Azərbaycanda həyata keçirdiyi mütərəqqi islahatların tərkib hissəsi və məntiqi davamı olmaqla yanaşı, ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövründə işləyib hazırladığı muxtar respublikanın uzun müddətə hesablanmış inkişaf proqramına dönmədən əməl edilməsinin, onun icrasının uğurla həyata keçirilməsinin nəticəsi idi.

Ulu öndərin Naxçıvana ilk səfərində Naxçıvanın yeni rəhbərliyi tərəfindən qısa müddət ərzində muxtar respublikada həyata keçirilmiş müsbət dəyişikliklərin şahidi olmuş, onları yüksək qiymətləndirərək demişdir: ***“...Muxtar respublikada işlər normal vəziyyətdədir. Görürəm ki, qısa müddətdə Naxçıvanda çox işlər görülübdür... Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır... Əminəm ki, bundan sonra da dayaq olacaqdır”.***

Sonrakı illərdə də Azərbaycan dövlətinin böyük qayğısı nəticəsində blokada şəraitində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə yüksək inkişafa, tərəqqiyə nail olunması, böyük quruculuq işlərinin uğurla həyata keçirilməsi muxtar respublika Ali Məclisinin Sədri cənab Vasif Talıbovun işə bələdliyi, məqsədyönlü, qətiyyətli fəaliyyətinin və idarəçilik bacarığının sayəsində mümkün olmuşdur.

Ali Məclisin Sədri muxtar respublikanın hərtərəfli inkişafına ciddi fikir verməklə yanaşı, diyarın geosiyasi vəziyyətini və gənc nəslin təlim – tərbiyəsini nəzərə alaraq



ordu quruculuğu və təhsil məsələlərini fəaliyyətində prioritet sahə adlandırmışdır. Muxtar dövlətin rəhbəri fəaliyyəti dövründə ardıcıl olaraq bu sahələrin inkişafına daha çox diqqət yetirmiş, nəticədə, yüksək uğurlar qazanılmışdır. Azərbaycan dövlətinin böyük qayğısı və muxtar respublika Ali Məclisi Sədrinin ciddi səyləri nəticəsində Naxçıvanda yaradılmış ordu hissələri ölkəmizin hərbi qüdrətinin artırılmasında, müdafiəsinin və təhlükəsizliyinin təşkilində peşəkar keyfiyyətləri ilə diqqəti cəlb edir. Təsadüfi deyildir ki, Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri muxtar respublikanın ərazisinin qorunmasındakı xidmətləri ilə yanaşı, İkinci Qarabağ döyüşlərində də əsl rəşadət və vətənpərvərlik nümunəsi göstərmişdir. Bunları nəzərə alan Prezident cənab İlham Əliyev demişdir: ***“...Əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər”.***



Naxçıvan Muxtar Respublikasının inkişafında 1995-2020-ci illərin xüsusi yeri vardır. Bu illərdə muxtar respublikanın həm iqtisadi, həm də sosial həyatında baş verən dəyişikliklər yüzillik inkişafa bərabərdir. Kənd və şəhərlərimizin abadlaşdırılması, inzibati binaların, sosial obyektlərin tikilməsi, tarix və mədəniyyət abidələrinin bərpası, yolların çəkilməsi, səliqə və sahmanın ən yüksək səviyyədə olması, insanların rifah halının yaxşılaşması Naxçıvan Muxtar Respublikasının bugünkü mənzərəsinin təsdiqidir. Ali Məclis Sədrinin qətiyyətli mövqeyi, yüksək idarəetmə bacarığı, ulu öndər Heydər Əliyev siyasətinə sədaqəti və əzmkarlığı Naxçıvanımızın inkişafının əsas səbəbidir. Naxçıvan Muxtar Respublikası 2017 və 2018-ci illərdə ölkəmizin regionları arasında birincilik qazanmış, 18 parametr üzrə lider olmuşdur. Ümumi daxili məhsulun artması, yeni istehsal müəssisələrinin yaradılması, ərzaq və enerji təhlükəsizliyinin həlli, ixracyönümlü məhsulların istehsalı muxtar respublikanın yüksək iqtisadi potensialından xəbər verir.

Muxtar respublikada aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahələrdəki irəliləyişlər diyarı Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirmişdir. Sənayedə, tikintidə, kənd təsərrüfatında, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar qazanılmışdır.

Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyev yolunun uğurla davam etdirilməsi nəticəsində Naxçıvan tamamilə dəyişilmiş, yenidən qurulmuş, müasir bir diyara çevrilmişdir. Ali Məclis Sədrinin ümummilli liderimizin dövlətçilik ideyalarına sədaqəti, ardıcıl və yorulmaz fəaliyyəti sayəsində regionda əldə edilmiş mühüm nəticələr, əslində, Azərbaycanın tərkibində yeni bir Naxçıvan ərsəyə gətirmişdir.

Muxtar respublikada ümumi daxili məhsul 1994-cü ildə 37,3 milyon manat olduğu halda 2009-cu ildə 973,6 milyon manata yüksəlmişdir, yəni 26,1 dəfə artmışdır. 2010-cu ildə muxtar respublikanın tarixində ilk dəfə olaraq ÜDM-in həcmi 1 milyard manat səviyyəsini keçmişdir. Həmin dövrdə adambaşına düşən ÜDM-in həcmi isə 21,5 dəfə artaraq 113,4 manatdan 2434,7 manata çatmışdır. 2011-ci ildə ÜDM-in həcmi 1995-ci ilə nisbətən 38 dəfə artmışdır. 2015-ci ildə ÜDM istehsalı 1995-ci ildəkinə nisbətən 56,4 dəfə artaraq 2,5 milyard manat təşkil etmiş, hər bir nəfərə düşən ÜDM istehsalı 42 dəfə artmışdır. 2019-cu ildə ÜDM-in həcmi əvvəlki illə müqayisədə 1,5 faiz artaraq 2,8 milyard manatdan çox olmuşdur. 2020-ci ilin ilk yarımilində ÜDM istehsalı 1 milyard 310 milyon manatı ötmüşdür.

Naxçıvan Muxtar Respublikasının ümumi inkişafında sənayenin öz payı vardır. Ötən əsrin 90-cı illərinin ortalarında muxtar respublikada 56 sənaye müəssisəsi mövcud olmuşdur.

Muxtar respublika rəhbərinin bu sahəyə ciddi diqqət yetirməsi sayəsində 1999-cu ildə 63 sənaye müəssisəsi fəaliyyət göstərmiş, sənaye müəssisələrində 2,9 milyon manatlıq məhsul istehsal edilmişdir. Muxtar respublikada geniş sənayeləşmə proqramları həyata keçirilir. Nəticədə, sənayenin yeni sahələri, sənaye məhəlləsi yaradılır. 2000-2005-ci illər ərzində muxtar respublika sənayesində 229 yeni təsərrüfat subyektinin fəaliyyətə başlaması, öz növbəsində, bu dövr ərzində sənaye məhsulu həcminin 3 dəfə artmasına zəmin yaratmışdır. 2005-ci ildə 41,2 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir. 2010-cu ildə sənaye müəssisələrinin sayı 423-ə çatmışdır. Bu müəssisələr 318,6 milyon manatlıq məhsul istehsal etmişdir. İşçilərin sayı 12,855-ə çatmışdır. 2015-ci ildə 917 milyon manatlıq, 2020-ci ilin I yarısında isə 561,6 milyon manatlıq sənaye malları istehsal olunmuşdur ki, bu bir il öncəki göstəricini bir faiz üstələyib. Sənaye məhsulu istehsalının 96,3 faizi malların, 3,7 faizi isə xidmətlərin payına düşür. İstehsal olunan sənaye məhsullarında özəl bölmənin payı 94,2 faiz təşkil edir ki, bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir. Sənayedə istehsalın həcminin artması nəticəsində 2020-ci ilin yanvar-iyun aylarında 152,2 milyon ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunub. Təsadüfi deyildir ki, 2020-ci il muxtar respublikada “İxrac ili” elan olunub.

Sənayenin inkişafında emal sənayesinin də özünəməxsus rolu vardır. 2017-ci ildə istehsal edilmiş sənaye məhsulunun 95 faizi emal sənayesinin payına düşmüşdür. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Həyata keçirilən tədbirlər, yeni emal müəssisələrinin fəaliyyətə başlaması sənaye sahəsində inkişafa əhəmiyyətli təsir göstərmişdir. Əvvəllər aqrar münasibətlərin üstünlük təşkil etdiyi muxtar respublikada artıq bir neçə ildir ki, ümumi daxili məhsulda istehsal həcminə görə sənaye ilk yeri tutur. Cari ildə də bu tendensiya qorunmuş, istehsal edilən sənaye məhsulunun həcmi kənd təsərrüfatı məhsulunun həcmini 2,3 dəfə üstələyərək 880 milyon manata yaxın olmuşdur”.***

Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının mühüm sahələrindən biridir. O, əhalinin ərzaq məhsullarına, emal sənayesi sahələrinin xammal və materiallara olan tələbatının ödənilməsində mühüm yer tutur. Muxtar respublikada il ərzində yaradılan əlavə dəyərin orta hesabla üçdəbir hissəsi kənd təsərrüfatının payına düşür.

*Ardı 3-cü səhifədə*



Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında kənd təsərrüfatı həmişə öncül mövqeyə malik olmuşdur. Muxtar respublikada əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatların ardıcıl həyata keçirilməsi, kənd təsərrüfatında aparılan struktur dəyişiklikləri aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratdı.

1999-cu ildən başlayaraq muxtar respublikada əkin sahələrinin ümumi sahəsi artmağa başladı. Əkin sahələri 2003-cü ildə 1990-cı ilə nisbətən 3,2, 1995-ci ilə nisbətən isə 49 faiz artmışdır. Bu artım, əsasən, birillik əkmələr hesabına olmuşdu. 2000-ci ildə muxtar respublikada torpaq islahatı başa çatdırılmış, 72758 ailəyə 56372 hektar torpaq sahəsi verilmişdir.

2000-ci ildə muxtar respublikada kənd təsərrüfatına yararlı torpaqlar 148,4 min hektar olmuşdur. 2019-cu ildə 62,9 min hektarda, 2020-ci ildə isə 63,4 min hektarda əkin aparılmışdır. 2019-cu ildə 507 milyon 641 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Həmin ildə taxıl istehsalı 102 min 984 ton olmuşdur.

Kənd təsərrüfatının inkişafı meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi və inkişafından xeyli dərəcədə asılıdır. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülür. 1996-2005-ci illər ərzində 37 yeni nasos stansiyası tikilmiş, 239-dan artıq nasos stansiyasında təmir işləri aparılmış, 234-dən artıq subartezian quyusu qazılmış, region üçün ənənəvi su mənbəyi olan bir çox kəhrizlər yenidən bərpa olunaraq istifadəyə verilmişdir. Sonrakı illərdə də meliorasiya-irriqasiya işləri davam etdirilmişdir.

Muxtar respublikada istifadəyə verilən su anbarları və başqa əhəmiyyətli suvarma obyektləri məhsuldar qüvvələrin inkişafında mühüm rol oynayır. Görülən tədbirlərin nəticəsidir ki, muxtar respublika ərazisində Araz Su Anbarı istisna olmaqla, ümumi həcmi 303,52 milyon kubmetr olan irili-xırdalı istismar edilən 31 su anbarı mövcuddur.

Muxtar respublikada su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, istifadə olunmayan torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək məqsədilə qapalı suvarma şəbəkələri tikilmiş, drenaj xətləri çəkilmişdir.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının inkişafında heyvandarlığın xüsusi rolu vardır. Muxtar respublika rəhbərinin apardığı məqsədyönlü tədbirlər nəticəsində bu sahədə də böyük nailiyyətlər əldə edilmişdir. 1994-cü ilə nisbətən 1998-ci ildə iribuynuzlu mal-qaranın, o cümlədən inək və camışların sayı müvafiq olaraq 24 faiz, qoyun və keçilərin sayı 46 faiz artmışdır. 2019-cu ildə iribuynuzlu mal-qaranın sayı 119,8 min baş olmuşdur. 2000-ci ildə xırdabuynuzlu heyvanların sayı 425,4 min baş olduğu halda, 2019-cu ildə 741,2 min başa çatmışdır. 2018-2019-cu illərdə 9 heyvandarlıq təsərrüfatı yaradılmışdır.

Muxtar respublikada quşçuluq, balıqçılıq, arıçılığın inkişafına da diqqət yetirilmiş, heyvandarlıq, quşçuluq, balıqçılıq və arıçılıq məhsullarının istehsalı ilbəil artmışdır.

Muxtar respublikada iqtisadi sahədə əldə olunmuş nailiyyətlər 1995-ci ildən başlayaraq tikinti-quruculuq və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır. Yeni və müasir bir Naxçıvan qurulmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtı ilə yanaşı, ən ucqar sərhəd kəndlərini də əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikasında 2000-ci ildə 12,4 milyon manatlıq, 2005-ci ildə 102 milyon manatlıq, 2010-cu ildə 501 milyon manatlıq, 2019-cu ildə 697,7 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. 2019-cu ilə qədər muxtar respublikada 562 inzibati bina, 284 təhsil, 491 mədəniyyət obyekti, 285 səhiyyə müəssisəsi, 171 nasos stansiyası, 416 subartezian quyusu, 181 körpü, 982 istehsal və xidmət obyekti, 52 idman obyekti, sağlamlıq imkanları məhdud, məcburi köçkün, qaçqın, şəhid ailələri üçün 516 fərdi ev tikilmiş və ya əsaslı təmir olunmuşdur. Son illər ərzində 4 qəsəbə, 151 kənd mərkəzi istifadəyə verilmişdir.



1995-2020-ci illər Naxçıvan Muxtar Respublikasının həyatına iqtisadi inkişafın daha da sürətləndirilməsi, sosial-mədəni yüksəliş dövrü kimi daxil olub. Bu yüksəliş, tərəqqi ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasının muxtar respublika rəhbəri tərəfindən uğurla həyata keçirilməsinin sayəsində baş vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov isə bu amili, ümummilli liderimizin dövlətçilik siyasətinin ana xəttini təşkil edən quruculuq missiyasının ölkəmizin bütün regionlarında olduğu kimi, muxtar respublikanın həyatında da başlıca hərəkətverici qüvvəyə çevrilməsi, iqtisadiyyatın sabitləşdirilməsi istiqamətində aparılan səmərəli tədbirlərlə əlaqələndirmişdir.

İqtisadi inkişafın və sosial tərəqqinin təmin olunmasında nəqliyyat sektoru mühüm rol oynayır. Son dövrlər muxtar respublikada bu mühüm sahənin inkişafı istiqamətində genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilmiş, müasir avtomobil yolları salınmış, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılmışdır.

Nəqliyyat sahəsində çox böyük işlər görülmüş, Naxçıvan Beynəlxalq Hava Limanı istifadəyə verilmiş, son 15 ildə 2 min kilometrdən çox yeni avtomobil yolları salınmışdır. 2020-ci ilin birinci yarısında muxtar respublikada nəqliyyat sektorunda 7 milyon 562 min ton yük, 47 milyon 165 min 400 sərnişin daşınmışdır.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etmişdir. Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da bu sahəyə daim diqqət və qayğı ilə yanaşılır, informasiya-kommunikasiya texnologiyaları sahəsi sürətlə inkişaf etdirilir.

Cənubi Koreyanın "DEU Telekom" şirkəti ilə bağlanılmış müqaviləyə əsasən telekommunikasiya sistemində yenidənqurma işləri aparılmış, ciddi nəticələr əldə edilmişdir. Belə ki, 35 mindən yuxarı elektrontipli xətt və nömrə, eyni zamanda mobil telefon şəbəkəsi istifadəyə verilmişdir. 2015-ci ildə muxtar respublika üzrə fərdi kompüterlərin sayı 303 minə çatmış, internetdən istifadə edənlərin sayı 353 mindən çox olmuşdur.

2020-ci ilin birinci yarısında muxtar respublikada informasiya və rabitə xidmətlərinin dəyəri 2019-cu ilin müvafiq dövründəki göstəricini 3,1 faiz üstələyərək 27 milyon 615 min 800 manat olmuşdur.

Naxçıvanda elektrik enerjisi sahəsində də böyük işlər görülüb. Əgər 2003-cü ildə muxtar respublikada bir elektrik stansiyası var idisə, hazırda 9 elektrik stansiyası mövcuddur ki, bunun da 6-sı bərpa olunan enerji sistemləridir. Əgər 2003-cü ildə muxtar respublika 1 milyard kilovatsaata yaxın enerji idxal etmişdirsə, 2018-ci ildə 35 milyon kilovat-saata yaxın enerji ixrac edibdir. 2 yeni SES tikilməkdədir: Ordubad və Tivi Su Elektrik stansiyaları. Üçüncü bir SES-in Əlincəçay üzərində tikilməsi nəzərdə tutulmuşdur. Bir neçə Günəş Elektrik Stansiyası tikilmişdir.

Son 25 ildə Naxçıvan Muxtar Respublikasının elə bir sahəsi yoxdur ki, orada dayanıqlı inkişaf təmin edilməmiş olsun. Muxtar respublikada 17 min hektardan çox sahədə yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınıb. Yaşıllıqların ümumi sahəsi 0,6 faizdən 20 faizə qədər artmışdır.

İqtisadi sahədə olduğu kimi, sosial sahədə də çox böyük nailiyyətlər əldə edilmişdir. Muxtar respublika sakinləri gündəlik həyatlarında bunu hiss edirlər: Əməkhaqqı və pensiyaların artırılmasında, yeni iş yerlərinin açılmasında, əhali gəlirlərinin yüksəlməsində, mənzil-məişət və yaşayış şəraitinin yaxşılaşmasında və başqa sahələrdə.

Əhalinin tələbatını ödəmək üçün 2010-cu ildə muxtar respublikada 108 növdə, 319 çeşiddə ərzaq, 184 növdə, 461 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 292 növdə, 780 çeşiddə məhsul istehsal olunmuşdur. 2019-cu ildə 383 növdə məhsul istehsal olunmuş, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, vaxtilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, ***"Təhsil millətin gələcəyidir"***. Ölkə Prezidenti cənab İlham Əliyev təhsilə ***"Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə"*** kimi yüksək dəyər vermişdir. Ali Məclisin Sədri cənab Vasif Talıbov təhsilin əhəmiyyətindən bəhs edərək deyib: ***"Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın"***.

Muxtar respublikada təhsilin bütün pillələri üçün şərait yaradılmış, onların maddi-texniki bazası möhkəmləndirilmiş, hər cür qayğı ilə əhatə olunmuşdur. Muxtar respublikada 215 ümumtəhsil, 6 peşə və peşə tədrisi mərkəzi, 19 məktəbəqədər, 44 məktəbdənkənar tərbiyə və təhsil müəssisəsi, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, Heydər Əliyev adına Hərbi Lisey, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey fəaliyyət göstərir. Ümumtəhsil məktəblərində 50590 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 6751 müəllim məşğul olur. Yüksəkixtisaslı kadrların hazırlanmasında 3 kollecin və 3 ali təhsil müəssisəsinin böyük rolu vardır. Ali təhsil müəssisələrində 94 ixtisas üzrə 8194 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 631 professor-müəllim heyəti məşğul olur.

Son 25 ildə muxtar respublikada elmin inkişafı üçün lazımi şərait yaradılmış, elmi müəssisə təsis edilmişdir. Ali Məclis Sədrinin təşəbbüsü, ulu öndər Heydər Əliyevin Sərəncamı ilə 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi yaradılmışdır. Bölmənin elm sahəsində respublikada qabaqcıl yerlərdən birini tutması, Naxçıvanın elm mərkəzi kimi tanınması Ali Məclis Sədrinin həmin istiqamətdə apardığı ardıcıl siyasətin, göstərdiyi böyük diqqət və qayğının nəticəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin, Bilik Fondunun, Elmin İnkişafı Fondunun yaradılması da elmə və təhsilə göstərilən yüksək dövlət qayğısının daha bir ifadəsidir. Elmə göstərilən qayğı elmi potensialın artmasına səbəb olmuşdur. Hazırda muxtar respublikada 7 nəfər AMEA-nın üzvü, 28 nəfər elmlər doktoru, 251 nəfər fəlsəfə doktoru fəaliyyət göstərir, onlardan 24 nəfəri professor, 194 nəfəri dosent elmi adını daşıyır.

Naxçıvan Muxtar Respublikasında mədəniyyətə, milli-mənəvi dəyərlərə, tarixi irsə böyük diqqət yetirilir, onların inkişafı və qorunması üçün lazımi tədbirlər hazırlanıb həyata keçirilir. Ali Məclis Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamı ilə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması işinə başlanılmış, bu günə qədər 1216 abidə qeydə alınmış, onlar tədqiqata cəlb edilmişdir. Dünya və ölkə əhəmiyyətli abidələr əsasında "Naxçıvan abidələri" ensiklopediyası nəşr edilmişdir. Həmin abidələrdən 70-dən çoxu təmir və bərpa edilmişdir. Bir sıra abidələrin tədqiqi və bərpa edilməsi ilə əlaqədar Ali Məclis Sədrinin sərəncamları olmuş və bu sərəncamlardan irəli gələn vəzifələrə uyğun olaraq 3 dildə "Əlincəqala", "Qarabağlar Türbə Kompleksi", "Gülüstan türbəsi", "Gəmiqaya qayaüstü rəsmləri", "Yallılar dünəndən bu günə" və digər kitablar hazırlanaraq çap edilmişdir. Hazırda muxtar respublika ərazisində bizə məlum olan tarix və mədəniyyət abidələri ikinci həyatlarını yaşayır.

Tariximizin heç bir dövründə tarix və mədəniyyət abidələrimizə indiki qədər diqqət və qayğı olmamışdır.

Naxçıvan türbələri, imamzadələri, hamamları, məscidləri, körpüləri, buzxanaları və başqa abidələri bərpa edilmiş, onlar haqqında illüstrativ kitablar hazırlanmışdır.

Ali Məclis Sədrinin müxtəlif illərdə görkəmli şəxsiyyətlər ilə əlaqədar sərəncamları verilmişdir. Bu sərəncamlar əsasında Məhəmməd Tağı Sidqinin, Yusif Məmmədəliyevin, Cəlil Məmmədquluzadənin, Məmməd Arazın, Şahtaxtinskilərin və başqalarının ev-muzeyləri yaradılmış, "Taleyi və sənəti" seriyasından ibarət olan kitablar çap edilmişdir. Hazırda muxtar respublikada 31 muzey fəaliyyət göstərir. Bu muzeylər arasında Duz Muzeyi, Milli Dəyərlər Muzeyi, Açıq Səma Altında Muzey kimi mədəniyyət obyektləri muxtar respublikamızın tarixi, mədəniyyəti, təbii sərvətlərinin tanıdılması istiqamətində əhəmiyyətli və maraqlı işlər aparır.

Naxçıvan Muxtar Respublikası müxtəlif beynəlxalq tədbirlərin, zirvə toplantılarının keçirildiyi məkana çevrilmişdir. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi, Naxçıvanın ölkəmizin "Gənclər Paytaxtı" adını qazanması, hər iki tədbirin zirvə toplantılarının burada keçirilməsi Naxçıvan şəhərinə, onun tarixinə, mədəniyyətinə, inkişaf səviyyəsinə bəslənilən ehtiramın bariz ifadəsidir.

Muxtar respublikada son illərdə daha çox diqqət yetirilən sahələrdən biri də turizmdir. Naxçıvanda turizmin bir sıra sahələri – dağ-xizək turizmi, dini ziyarət turizmi, mədəni turizm, müalicəvi turizm, kənd turizmi üçün geniş imkanlar vardır. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması turistlərin marağını xeyli artırıb. Görülən işlərin nəticəsidir ki, hər il orta hesabla muxtar respublikaya 400 mindən artıq turist gəlir.

Ölkə rəhbərinin respublikamızın bütün bölgələri kimi, Naxçıvana da göstərdiyi diqqət və qayğıdan məqsədyönlü şəkildə istifadə edən Ali Məclisin Sədri muxtar respublikanın hərtərəfli inkişafına, çiçəklənən bir diyara çevrilməsinə bütün səy və bacarığını sərf edir. Nəticədə, muxtar respublikamız hər bir qonağın sevimli məkanına çevrilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvana hər səfərində burada böyük quruculuq işlərinin *"yüksək zövqlə, böyük məhəbbətlə"* görülməsini qeyd etmiş və bu işlərdən razı qaldığını bildirərək demişdir: ***"Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir. ...Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm"***.



Prezident cənab İlham Əliyev tərəfindən verilmiş belə yüksək qiymət onu sübut edir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 25 ildə müstəqil Azərbaycan dövlətçiliyinə, Heydər Əliyev ideyalarına və siyasi kursuna, bu kursu ölkəmizdə yüksək səviyyədə həyata keçirən dövlət başçısının fəaliyyətinə kömək və yardımcı olmaq üçün məqsədyönlü və ardıcıl işləri uğurla həyata keçirir.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***
***"İki sahil" qəzeti***
***16 dekabr 2020-ci il***

# Muxtar respublikada dövlət miqrasiya siyasəti uğurla həyata keçirilir



***1990-cı il dekabrın 18-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Konvensiya qəbul edilmişdir. 2000-ci ildən etibarən həmin tarix "Beynəlxalq Miqrant Günü" kimi qeyd olunur.***

Son illərdə bütün dünyada getdikcə sürətlənən və miqyasını durmadan genişləndirən qloballaşma proseslərinin əsas faktorlarından biri də məhz miqrasiya amilidir. Müasir dünyada baş verən müxtəlif siyasi və iqtisadi proseslər miqrasiyanın, xüsusilə sosial-iqtisadi miqrasiyanın genişlənməsinə təsirsiz ötməmişdir. Hazırda mövcud miqrantların böyük əksəriyyətini əməkçi miqrantlar təşkil edir ki, bu da onlarla bağlı problemlərə xüsusi diqqət yetirilməsini və bununla bağlı bir çox məsələlərdə dövlətlər tərəfindən vahid yanaşmanın tətbiq olunmasını zəruri edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra bütün istiqamətlərdə, o cümlədən miqrasiya sahəsində də ardıcıl tədbirlər görülmüş, qanunvericilik təkmilləşdirilmişdir. Ulu öndər Heydər Əliyev vaxtilə müxtəlif səbəblərdən miqrasiya etmiş ölkə vətəndaşlarının hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasını, həmçinin onların üzləşdiyi bütün problemlərin həllini dövlət siyasətinin prioritet vəzifəsi elan etmişdir. Həmin dövrdə iqtisadi inkişafın, təhlükəsizliyin və sabitliyin təmin olunması, neft layihələrinin gerçəkləşməsi xarici investorların və əməkçi miqrantların ölkəmizə axınına səbəb olmuşdur. Ümummilli lider Heydər Əliyev öz müdrikliyi və uzaqgörənliyi ilə, ümumilikdə, bu proseslərin mahiyyətini açıqlayaraq demişdir: ***"Miqrasiya təbii prosesdir, onun qarşısını almaq olmaz, almaq da lazım deyil və ümumən, pozitiv xarakter daşıyır. Dünyada miqrasiya prosesi bütün ölkələrə, xalqlara aiddir".***

27 sentyabr 2020-ci il tarixdən etibarən Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Müzəffər Ordumuz 30 il işğal altında olan torpaqlarımızı azad edərək noyabrın 10-da Böyük Qələbə qazandı. Bu tarixi Qələbə həm də 90-cı illərin əvvəllərində Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində məcburi daxili miqrasiya ilə üzləşən 1 milyondan artıq qaçqın və məcburi köçkünlərimizin yenidən doğma yurdlarına qayıtmasına mühüm zəmin yaratdı. 30 ildir, qəlbi Vətən eşqi ilə yanan, doğma ev-eşiyindən didərgin düşərək daxili məcburi miqrasiyaya məruz qalan köçkünlərimiz artıq öz dədə-baba yurdlarına qayıdacaq, bundan sonra da yüksək dövlət qayğısı ilə əhatə olunacaqlar.

Şübhəsiz ki, bu gün dünya dövlətləri miqrasiya məsələlərinin beynəlxalq hüquq normaları ilə tənzimlənməsi və miqrantların hüquqlarının qorunması istiqamətində sıx əməkdaşlığa üstünlük verirlər. Bu baxımdan ölkəmizdə Beynəlxalq Miqrant Gününün qeyd olunması da dövlətin miqrasiya proseslərini tolerantlıq zəminində, milli və irqi ayrı-seçkilik olmadan tənzimlənməsində maraqlı olduğunu təzahür etdirir.

Bu gün ölkəmizdə bütün istiqamətlər üzrə mühüm islahatlar, yeniliklər həyata keçirilmiş və nailiyyətlər əldə olunmuş, Azərbaycan bir çox parametrlər üzrə inkişaf edən ölkəyə çevrilmişdir. Hazırda ölkəmizin sürətli inkişafı, sabitlik, həyata keçirilən layihələr, turizmin inkişaf etdirilməsi, həmçinin beynəlxalq əhəmiyyətli tədbirlərin, yarışların, forum və iclasların məhz Azərbaycanda yüksək səviyyədə təşkil edilməsi dünyanın diqqətini respublikamıza yönəldib. Bu səbəbdən də ölkəmizə maraq göstərən əcnəbilərin sayı hər ötən il artan dinamika ilə inkişaf edir. Azərbaycanda miqrasiya sahəsində mükəmməl qanunvericilik bazası formalaşdırılmış və insan hüquqları sahəsində əsas beynəlxalq hüquqi sənədlərin müddəalarının tətbiqi üçün lazımi siyasi-hüquqi baza yaradılmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikasında da miqrasiya prosesləri qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, bu sahədə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Qarşıya qoyulan bütün vəzifələrin uğurla icra olunması, əhalinin həyat səviyyəsinin və sosial rifah halının daha da yaxşılaşdırılması, mövcud sabitlik və iqtisadi inkişaf, həmçinin miqrasiya sahəsində qanunvericilik bazasının son dərəcə sadələşdirilməsi son illər Naxçıvan Muxtar Respublikasına miqrasiya axınını daha da sürətləndirib. Bu gün muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı bütün zəruri tədbirlərin reallaşdırılması və daxili əmək bazarının qanunsuz miqrantlardan qorunması təmin olunub. Miqrasiya sahəsində dövlət siyasəti muxtar respublikanın sosial-iqtisadi maraqlarının qorunması ilə yanaşı, miqrantların, o cümlədən də əməkçi miqrantların, onların ailə üzvlərinin həyat və fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, hüquqlarının müdafiəsinə yönəldilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Qanuni əsaslarla ölkəyə gələn hər bir əcnəbi nəzərdə tutulmuş bütün hüquq və azadlıqlardan istifadə etməlidir. Bunun üçün hər cür şərait yaradılmış və hüquqi baza formalaşdırılmışdır".***

Naxçıvan Muxtar Respublikasında bütün miqrantların hüquq və azadlıqlarının qorunması və təminatına daim xüsusi diqqətlə, həssaslıqla yanaşılır və bu istiqamətdə görülən işlər müasir standartlar səviyyəsinə çatdırılıb. Xidmətin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin fəaliyyəti də bu işlərin məhz bir hissəsidir. Qanunvericiliyin tələblərini pozmuş, maddi vəsaiti və yaşayış yeri olmayan miqrantların, o cümlədən qaçqın statusu almaq istəyənlərin mərkəzdə müvəqqəti qalmaq üçün könüllü müraciəti təmin edilib.

Bu gün xidmətin fəaliyyətində Dövlət proqramlarının vaxtında və dəqiq icrası da diqqətdə saxlanılan prioritet vəzifələrdəndir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş turizm sektorunun inkişafı üçün muxtar respublikada əlverişli mühitin formalaşması məqsədilə sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi istiqamətində Dövlət Miqrasiya Xidməti tərəfindən mühüm addımlar atılıb. Eyni zamanda əcnəbilərin olduğu yer üzrə qeydiyyatı xeyli sadələşdirilmiş, qeydiyyatın aparılmasına əlverişli şərait yaradılmış, şəxsən müraciətləri ilə yanaşı, elektron qaydada da müraciətləri təmin edilmişdir. Həmçinin muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında ölkəyə gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması proseduru sadələşdirilmiş formada elektron qaydada həyata keçirilir.

Əcnəbilərin muxtar respublikamızda rahat, təhlükəsiz, sərbəst hərəkət etmələrinin, eləcə də qanunsuz miqranta çevrilməmələrinin əsasında həm də maarifləndirmə tədbirləri dayanır. Dövlət Miqrasiya Xidməti əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin muxtar respublikaya daxil olduğu ilk andan etibarən onların məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirir. Bu baxımdan sərhəd-keçid məntəqələrində yerləşdirilmiş elektron məlumat köşkləri üzərində müvəqqəti və daimi yaşamaq, olduğu yer üzrə qeydiyyata alınma, haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi və müddətinin uzadılması ilə bağlı məlumatlar Azərbaycan, rus və ingilis dillərində yazılı və səsli formada ölkə vətəndaşlarına, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təqdim olunur. Həmçinin sərhəd-keçid məntəqələrində miqrasiya bölmələrinin əməkdaşları tərəfindən muxtar respublikaya səfər edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərə operativ qaydada şifahi olaraq hüquq və azadlıqları, vəzifələri ilə bağlı mühüm məlumatlar verilir, eyni zamanda miqrasiya qanunvericiliyi ilə bağlı yarana biləcək istənilən çətinlik qarşısında müraciətetmə qaydaları ətraflı izah olunur. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün Naxçıvan Muxtar Respublikasında miqrasiya sahəsində baş verə biləcək qanun pozuntuları minimum həddə çatıb.

Ötən dövr ərzində ölkə vətəndaşlarına, habelə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətlərin operativliyini və keyfiyyətini artırmaq məqsədilə bir sıra ciddi tədbirlər həyata keçirilib. Belə ki, Dövlət Miqrasiya Xidməti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə "Elektron hökumət" portalı üzərindən 9 sahə üzrə xidmət göstərir. Həmin şəxslərə iş icazələrinin verilməsi və müddətinin uzadılması da bu xidmət növlərinə daxildir. Əməkçi miqrantların işə götürülmə prosedurunu sadələşdirmək üçün xidmətin rəsmi internet səhifəsi üzərində "Elektron xidmətlər" bölməsi yerləşdirilmiş, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən iş icazələrinin və onun əsasında muxtar respublika ərazisində yaşamaq hüququ verən müvafiq icazələr üçün müraciətetmə imkanı yaradılmışdır. Eyni zamanda bu xidmət növləri üzrə dövlət rüsumlarının internet üzərindən ödənilməsi də onlayn həyata keçirilə bilir. Dövlət Miqrasiya Xidmətinin "202 – Miqrasiya Məlumat Mərkəzi"nin fəaliyyəti də miqrasiya sahəsi üzrə qanunvericilik və sənədlərin icrası ilə bağlı informasiyaları əldə etmək hüququnun təmini baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Dövlət Miqrasiya Xidmətinin qarşısına qoyduğu vəzifələrdən biri də əcnəbilərin qanunlara əməl etməklə yanaşı, həm də Azərbaycan Respublikasının tarixini, mədəniyyətini və dilini də öyrənməsidir. Bu mövzunun aktuallığı və əhəmiyyəti hər zaman diqqətdə saxlanılaraq muxtar respublikada müvəqqəti yaşayan və əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin hüquqları qorunur, onlarla muxtar respublikanın tarixi, mədəniyyəti, incəsənəti, turizm imkanları ilə bağlı müxtəlif maarifləndirici tədbirlər keçirilir, muzeylərə ekskursiyalar təşkil olunur.

Eyni zamanda miqrasiya sahəsində vətəndaş məmnuniyyətinin və rahatlığının, göstərilən xidmətlərin operativliyinin təmin olunması, miqrasiya qanunvericiliyi sahəsində hüquqi məlumatların əldə edilməsi məqsədilə Dövlət Miqrasiya Xidmətinin rəsmi internet səhifəsi də fəaliyyət göstərir. Həm funksionallıq, həm də dizayn baxımından müasirləşdirilərək zamanın tələbinə uyğunlaşdırılan internet səhifəsi üç dildə – Azərbaycan, rus, ingilis dillərində vətəndaşlara xidmət göstərir. Bu isə təqdim edilən məlumatların beynəlxalq səviyyədə yayılması deməkdir. Xidmətin rəsmi internet saytının daha çox əcnəbilər tərəfindən istifadəsi nəzərə alınaraq *www.migration.nmr.az* adı ilə də fəaliyyəti təmin edilib.

Əminliklə deyə bilərik ki, bu gün muxtar respublikada miqrasiya xidməti əməkdaşlarının səmərəli iş prinsipi və fəaliyyəti üçün bütün imkanlar yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin miqrasiya sahəsinə diqqət və qayğısı xidmətin əməkdaşları tərəfindən hər zaman dərin minnətdarlıq və ruh yüksəkliyi ilə qarşılanır.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi və bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, bütün sahələrdə yeni üsul və sistemlərin tətbiqi, eyni zamanda təhlükəsizliyin və sabitliyin mütləq surətdə qorunması insan hüquqlarının və azadlıqlarının səmərəli təmin edilməsi və müdafiəsinə şərait yaratmışdır. Dövlət Miqrasiya Xidmətinin yüksək peşəkarlığa, mənəvi, eləcə də fiziki hazırlığa malik kadr potensialı tərəfindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquqi mexanizmlərin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Növbəti dəyirmi masa



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetində keçirilən növbəti dəyirmi masada "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciəti" kitabı müzakirə edilib. Dəyirmi masanı giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev gənc nəslin vətənpərvərlik, tarixi kökə bağlılıq ruhunda tərbiyə edilməsində sərəncamın əhəmiyyətindən bəhs edib və kitabın məziyyətlərindən danışıb. Bildirilib ki, bu nəşr xalqımız üçün əhəmiyyət kəsb edən tarixi məqamları əhatə edir və kitabda tariximizin bütün dövrləri təhlil olunur.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Asəf Əliyev, Tarix fənninin tədrisi metodikası və metodologiyası ixtisası üzrə II kurs magistr tələbəsi Nurtac Zeynalova çıxış ediblər.

Sonra Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib. Tələbələrin sualları cavablandırılıb, videoçarxa baxış olub.

**Telli MUSTAFAYEVA**

## STEAM dərnəyinin üzvləri olimpiadada iştirak ediblər



16-17 dekabr tarixlərdə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Robopark" layihəsi çərçivəsində Mədəniyyət Nazirliyinin "Kreativ Azərbaycan" portalının dəstəyi, Gənclər və İdman Nazirliyinin tərəfdaşlığı, AREA-Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının birgə təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Creative Solution Go" –"Yaradıcı həllərə doğru" olimpiadası təşkil edilib. Layihə ölkəmizdə innovativ ideyaların yayılması, startap hərəkatının genişləndirilməsi, gənclər arasında innovativ düşüncə tərzinin inkişaf etdirilməsi məqsədilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü ilə baş tutub.

Tədbirdə muxtar respublikadan 10 müəllim və 3 şagird iştirak edib. 7-12 yaşlı uşaqlar üçün nəzərdə tutulan 2 kateqoriya üzrə keçirilən olimpiadada Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin IV sinif şagirdləri Gülay Bağırlı və Duyğu Qənbərli "Koronavirus pandemiyası: sual-cavab" mövzusunda maarifləndirici oyun dizaynı təqdim ediblər.

Olimpiadanın nəticəsinə görə Duyğu Qənbərlinin hazırladığı maarifləndirici oyun dizaynı sertifikata layiq görülüb.

**Ülviyyə HACIYEVA**

### *İtmişdir*

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini Heydərova Nərgiz Adil qızının adına verilmiş MH-0048482 nömrəli çıxarış və A-013825 nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

***

Türk vətəndaşı Furkan Tunaya məxsus şəxsiyyət vəsiqəsi və sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 949